**“Maarifpərvərlik”**
**Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyası**
**(MAGİYA) ictimai birliyi**

**“Education”**
**Public Support Association of Youth of Azerbaijan**
**(EPSAYA) public union**

**Azərbaycan Respublikası, Lənkəran şəhəri, AZ 4200, Heydər Əliyev prospekti 3,**
**İnternet səhifəsi: www.epsaya.az, E-mail: info@epsaya.az, Telefon: (0 51) 814 44 42**

**PRES-RELİZ – 2023**

MAGİYA ictimai birliyi 2023-cü il ərzində müxtəlif hökumət, qeyri-hökumət və beynəlxalq təşkilatlar ilə sıx əməkdaşlıq çərçivəsində aşağıdakı layihələri (tədbirləri) uğurla həyata keçirmişdir:

1. MAGİYA ictimai birliyi 17-19 fevral 2023-cü il tarixlərində Lənkəran şəhərində yerləşən “Lüks Lənkəran” otelində Azərbaycanın 14 yaşayış məntəqəsindən (Astara, Bakı, Biləsuvar, Füzuli, Goranboy, Xaçmaz, İsmayıllı, Qazax, Qəbələ, Lerik, Lənkəran, Mingəçevir, Şəki, Tovuz) olan 25 nəfər gənc üçün Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə dəstəyi ilə (8500 manat) **“Gender əsaslı zorakılığa və məişət zorakılığına qarşı ictimai mübarizə”** mövzusunda 3 günlük nəzəri-praktik konfrans təşkil etmişdir. Nəzəri-praktik konfransda 8 nəfər oğlan və 17 nəfər qız iştirak etmişdir. Qeyd edək ki, nəzəri-praktik konfransdan öncə Azərbaycanın 46 müxtəlif yaşayış məntəqəsindən (Abşeron, Ağdaş, Ağstafa, Astara, Bakı, Beyləqan, Bərdə, Biləsuvar, Cəbrayıl, Cəlilabad, Daşkəsən, Füzuli, Gədəbəy, Gəncə, Goranboy, Göyçay, Göygöl, Xaçmaz, İmişli, İsmayıllı, Kürdəmir, Qax, Qazax, Qəbələ, Quba, Laçın, Lerik, Lənkəran, Masallı, Mingəçevir, Naxçıvan, Oğuz, Saatlı, Sabirabad, Salyan, Sumqayıt, Şabran, Şamaxı, Şəki, Şəmkir, Tovuz, Ucar, Yardımlı, Yevlax, Zaqatala, Zərdab) 158 nəfər gənc ərizəçi (61 oğlan və 97 qız) tədbirdə iştirak etmək üçün təşkilata müraciət etmişdir. Təşkilatın heyətindən başqa nəzəri-praktik konfransda qonaq qismində Lənkəran şəhər Gənclər və İdman İdarəsinin əməkdaşı cənab Yusif Xamıyev, ekspert qismində isə Lənkəran rayon Vəkil Bürosunun vəkili cənab Zaur Qasımov iştirak edərək özlərinin şəxsi bilik və təcrübələrini gənclərlə bölüşmüş və iştirakçı gənclərin suallarını cavablandırmışlar. Nəzəri-praktik konfransda heyətlə iştirakçılar arasında ailə dəyərləri, gender əsaslı zorakılıq və ailədaxili zorakılıq sahəsində bir çox mövzular – ***“Gender və gender bərabərliyi anlayışları, Stereotip və gender stereotipləri, Qadın hüquqları və onların özünümüdafiə qaydaları: Qadınlara qarşı zorakılıq, Gender əsaslı zorakılıq, ailədaxili zorakılıq, onların formaları və onlara qarşı mübarizə tədbirləri, Azərbaycanda ailə institutu və mövcud adət-ənənələr, Azərbaycanda klassik və müasir ailə dəyərləri, Ailə və etika konsepsiyası, Əxlaq normaları və qanunvericilik, Azərbaycanda nikahlar və boşanmalar: mövcud vəziyyət və statistika, Məlumat bankı - Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi, İctimai qınaq, ictimai nəzarət və ictimai iştirakçılıq konsepsiyaları”*** müzakirə olunmuşdur. Nəzəri-praktik konfransın keçirilməsi zamanı heyət təqdimatlar, beyin həmləsi, fokus qrup müzakirələri, interaktiv qrup işləri, debatlar və enercayzerlər kimi bir çox metodlarından geniş istifadə etmiş, eləcə də, bütün sessiya ərzində mövzularla bağlı müxtəlif sosial çarxlar izlənilmişdir. Nəzəri-praktik konfransın sonunda bütün iştirakçılara müvafiq təqdimatlar təqdim olunmuşdur. Sonda iştirakçılar və təşkilatçılar, eləcə də qonaqlar və ekspertlər layihə ilə bağlı öz fikirlərini bildirmiş və donora – Azərbaycan Respublikasının Gənclər Fonduna gənclər üçün belə bir aktual layihənin reallaşdırılmasını təmin etdiyi üçün minnətdarlıq etmişlər. Qeyd edək ki, layihənin məqsədi respublikamızda nikahların azalmasına, boşanmaların isə artmasına rəvac verən gender əsaslı zorakılığa və məişət zorakılığına qarşı ictimai mübarizə sahəsində gənclərin, xüsusən də, yeni ailə quran gənc ailələrin ölkə miqyasında maarifləndirilməsini və məlumatlandırılmasını təşkil etməkdən ibarət olmuşdur.





2. MAGİYA ictimai birliyi 25-27 avqust 2023-cü il tarixlərində Lənkəran şəhərində yerləşən “Lüks Lənkəran” otelində Azərbaycanın 14 yaşayış məntəqəsindən (Astara, Bakı, Cəlilabad, Gədəbəy, Xocavənd, Lənkəran, Masallı, Saatlı, Sabirabad, Sumqayıt, Şəki, Şəmkir, Tovuz, Yevlax) olan 22 nəfər gənc üçün Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə (8000 manat) **“Azərbaycanda qadın hüquqlarının təbliğ olunması və qadınların ictimai iştirakçılığının artırılması mövzusunda tədbirlərin təşkili”** sahəsində 3 günlük nəzəri-praktik konfrans təşkil etmişdir. Nəzəri-praktik konfransda 18 nəfər qız və 4 nəfər oğlan iştirak etmişdir. Qeyd edək ki, nəzəri-praktik konfransdan öncə Azərbaycanın 48 müxtəlif yaşayış məntəqəsindən (Abşeron, Ağcabədi, Ağdam, Ağdaş, Astara, Bakı, Bərdə, Biləsuvar, Cəbrayıl, Cəlilabad, Daşkəsən, Füzuli, Gədəbəy, Gəncə, Goranboy, Göyçay, Hacıqabul, Xaçmaz, Xızı, Xocavənd, İmişli, İsmayıllı, Kürdəmir, Qazax, Qəbələ, Qobustan, Quba, Lerik, Lənkəran, Masallı, Mingəçevir, Naxçıvan, Neftçala, Oğuz, Saatlı, Sabirabad, Salyan, Samux, Sumqayıt, Şamaxı, Şəki, Şəmkir, Şirvan, Tərtər, Tovuz, Ucar, Yevlax, Zaqatala) 193 nəfər gənc ərizəçi (145 qız və 48 oğlan) tədbirdə iştirak etmək üçün təşkilata müraciət etmişdir. Təşkilatın heyətindən başqa nəzəri-praktik konfransda qonaq qismində Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin rəisi cənab Teymur Babazadə, Lənkəran rayon Ağsaqqallar Şurasının sədr müavini cənab Güloğlan Bağırov, Ombudsman Aparatının Cəlilabad Regional Mərkəzinin rəhbəri cənab Ziya İsmayılov, ekspert qismində isə Lənkəran Rayon Vəkil Bürosunun vəkili və mediator cənab Zaur Qasımov iştirak edərək özlərinin şəxsi bilik və təcrübələrini gənclərlə bölüşmüş və iştirakçı gənclərin suallarını cavablandırmışlar. Nəzəri-praktik konfransda heyətlə iştirakçılar arasında ailə, qadın, uşaq və gender məsələləri sahəsində bir çox mövzular – ***“Azərbaycanda ailə institutu və mövcud adət-ənənələr, Azərbaycanda klassik və müasir ailə dəyərləri, Nikah, nikah hüququ və nikah müqaviləsi, erkən nikahlar, onların nəticələri və fəsadları, Azərbaycanda nikahlar və boşanmalar: mövcud vəziyyət və statistika, Məlumat bankı - Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi, Qadın hüquqları və milli qanunvericilik, Qadınlara qarşı zorakılıq – İstanbul Konvensiyası, Ailədaxili zorakılıq və onun formaları, Məişət və gender əsaslı zorakılıq üzrə qanunvericilik, Gender və gender bərabərliyi, Stereotip və gender stereotipləri, İctimai qınaq, ictimai iştirakçılıq və onun formaları, Vətəndaş Cəmiyyəti İnstitutları, İctimai Şura, onun hüquq və vəzifələri, İctimai nəzarət, ictimai müzakirələr və ictimai dinləmələr”*** müzakirə olunmuşdur. Nəzəri-praktik konfransın keçirilməsi zamanı heyət müxtəlif üsullardan təqdimatlar, beyin həmləsi, fokus qrup müzakirələri, interaktiv qrup işləri, enercayzerlər, iştirakçılarla və mütəxəsislərlə qarşılıqlı fikir mübadiləsi kimi fərqli metodlardan geniş istifadə etmiş, eləcə də bütün sessiya ərzində mövzularla bağlı müxtəlif sosial çarxlar izlənilmişdir. Nəzəri-praktik konfransın sonunda bütün iştirakçılara müvafiq təqdimatlar təqdim edilmişdir. Sonda iştirakçılar və təşkilatçılar, eləcə də qonaqlar və ekspertlər layihə ilə bağlı öz fikirlərini bildirmiş və donora – Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinə gənclər üçün belə bir aktual layihənin reallaşdırılmasını təmin etdiyi üçün minnətdarlıq etmişlər. Qeyd edək ki, layihənin məqsədi Azərbaycanda ailə, qadın, uşaq və gender məsələlərinin aktuallığını gündəmə gətirməklə, cəmiyyətimizdə qadın hüquqlarının və qadınların ictimai iştirakçılığının təbliği və

təşviqi sahəsində gənclərin, xüsusilə də, gənc ailələrin ölkə miqyasında maarifləndirilməsini və məlumatlandırılmasını təşkil etmək, habelə ailələrin dağılmasına və boşanmaların artmasına səbəb olan məişət zorakılığı ilə mübarizəni gücləndirməkdən ötrü bu istiqamətdə geniş profilaktik və preventiv tədbirlərin həyata keçirilməsindən ibarət olmuşdur.





3. MAGİYA ictimai birliyi 05-07 yanvar 2024-cü il tarixlərində Lənkəran şəhərində yerləşən "Lüks Lənkəran" otelində Azərbaycanın 16 yaşayış məntəqəsindən (Bakı, Bərdə, Cəbrayıl, Goranboy, Göygöl, Xaçmaz, İsmayıllı, Kürdəmir, Qəbələ, Quba, Lənkəran, Masallı, Naxçıvan, Neftçala, Şəmkir, Tərtər) olan 25 nəfər gənc üçün Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə dəstəyi ilə (8500 manat) **"Erkən nikahların və qohum evliliyinin fəsadlarına dair profilaktik tədbirlər"** mövzusunda 3 günlük nəzəri-praktik konfrans təşkil etmişdir. Nəzəri-praktik konfransda 7 nəfər oğlan və 18 nəfər qız iştirak etmişdir. Qeyd edək ki, nəzəri-praktik konfransdan öncə Azərbaycanın 36 müxtəlif yaşayış məntəqəsindən (Abşeron, Agcabədi, Ağdam, Ağstafa, Astara, Bakı, Bərdə, Biləsuvar, Cəbrayıl, Füzuli, Gəncə, Goranboy, Göygöl, Xaçmaz, İsmayıllı, Kürdəmir, Qazax, Qəbələ, Qobustan, Quba, Laçın, Lerik, Lənkəran, Masallı, Mingəçevir, Naxçıvan, Neftçala, Oğuz, Salyan, Sumqayıt, Şamaxı, Şəmkir, Tərtər, Tovuz, Yardımlı, Yevlax) 104 nəfər gənc ərizəçi (36 oğlan və 68 qız) tədbirdə iştirak etmək üçün təşkilata müraciət etmişdir. Təşkilatın heyətindən başqa nəzəri-praktik konfransda qonaq qismində Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin rəis müavini xanım Könül Manafova, Ombudsman Aparatının Cənub Regional Mərkəzinin rəhbəri cənab Ziya İsmayılov, ekspert qismində isə Lənkəran Rayon Vəkil Bürosunun vəkili və mediator cənab Zaur Qasımov iştirak edərək özlərinin şəxsi bilik və təcrübələrini gənclərlə bölüşmüş və iştirakçı gənclərin suallarını cavablandırmışlar. Nəzəri-praktik konfransda işçi heyətlə iştirakçılar arasında ***erkən nikahlar və qohum evliliyi*** məsələləri sahəsində bir çox mövzular – ***"Erkən nikahlar haqqında ümumi məlumat: BMT-nin Əhali Fondunun və Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarının təhlili, Erkən nikahların başvermə səbəbləri və erkən nikaha daxil olmanın sosial fəsadları, Qızların erkən nikaha daxil olması və rəsmi nikahdan kənar doğulan uşaqların əsas hüquqi problemləri, Erkən nikahdan doğulan uşaqların təhsildən yayınması halları – təhsil hüququnun pozulması və nikahdan kənar doğulan uşaqların əsas sosial problemləri – uşaq əməyinin istismarı, Azərbaycanda klassik və müasir ailə dəyərləri, Qohum evliliyi və ona rəvac verən adət-ənənələr, Yetkinlik yaşına çatmayan qız uşaqlarının zorla ərə verilməsi, o cümlədən qadını nikaha daxil olmağa məcbur etməyə görə məsuliyyət, Erkən nikahların rəvac verdiyi məişət zorakılğı problemi və ailədaxili zorakılığa qarşı məsuliyyət, Erkən nikahların pozulması hallarında atalıq faktının və ananın yaşayış hüququnun tanınması, birgə nikah dövründə əldə edilən əmlakın və mülkiyyətin bölüşdürülməsi məsələləri və aliment öhdəlikləri, Azərbaycanda nikahlar və boşanmalar: mövcud vəziyyət və statistika, Məlumat bankı - Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi, Cəmiyyətdə erkən nikahların, qohum evliliyinin, habelə ana və uşaq ölümü hallarının və boşanmaların qarşısının alınması yolları, Qızların təhsilə cəlb edilməsi, azyaşlıların nikahına yol verilməməsi və reproduktiv sağlamlıqla bağlı maarıfləndirmə yolları"*** müzakirə olunmuşdur. Nəzəri-

praktik konfransın keçirilməsi zamanı heyət təqdimatlar, beyin həmləsi, fokus qrup müzakirələri, interaktiv qrup işləri, debatlar və enercayzerlər kimi bir çox metodlarından geniş istifadə etmiş, eləcə də, bütün sessiya ərzində mövzularla bağlı müxtəlif sosial çarxlar izlənilmişdir. Nəzəri-praktik konfransın sonunda bütün iştirakçılara müvafiq təqdimatlar təqdim olunmuşdur. Sonda iştirakçılar və təşkilatçılar, eləcə də qonaqlar və ekspertlər layihə ilə bağlı öz fikirlərini bildirmiş və donora – Azərbaycan Respublikasının Gənclər Fonduna gənclər üçün belə bir aktual layihənin reallaşdırılmasını təmin etdiyi üçün minnətdarlıq etmişlər. Qeyd edək ki, layihənin məqsədi Azərbaycanda erkən nikahlar və qohum evliliyinin fəsadlarına dair profilaktik tədbirlər çərçivəsində gənclərin və gənc ailələrin ölkə miqyasında maarifləndirilməsini və məlumatlandırılmasını təşkil etməkdən ibarət olmuşdur.





*MAGİYA ictimai birliyinin Mətbuat Katibliyi*

*29 dekabr, 2023-cü il*